**Qıratlara atlanın**

Vətən oğlu, qıratlara, atlan görüm,
Səni sınaq meydanında,
Bəbir görüm, aslan görüm.
Torpağını, Vətənini uca tutar, uca insan,
Qüdrətilə zirvələrin zirvəsidir Azərbaycan.
Ey gəncliyim, qüdrət elim.
Vur düşməni mən də gəlim!
Yurda girən yarasanı,
Öz yurdunda məhv edəlim.
Bu gün gərək al bayraq da süngü olsun!
Həzin layla dönüb çoşqun cəngi olsun.
Basqınlara hasar çəksin sıra dağlar,
Arxasında hər dağın öz Fərhadı var.
Nəbiləri, Həcərləri at belində
Şərəfini qoruyublar.
Bu torpağın, bu elin də...
Vətən oğlu, bu gün zəfər yollarına günəş qonur.
Ana eşqi yar alqışı, könlünə nur.
Çənlibeldə şahə qaldır, qıratları.
Öz qanına, qəltan elə cəlladları.

Həsənbəy Y. Qıratlara atlanın : şeir // Azərbaycan. - 1994. - 20 may.